AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS



www.pq.mia.gov.az

polisazerbaycan

9 fevral 2024-cü il
Cümə

1933-cü ildən çıxır
№ 5 (3669)

## Azərbaycanın Zəfər seçkisi

### Ümummilli dəstəyin parlaq təzahürü

**Ərazi bütövlüyümüz tam təmin olunduqdan sonra Azərbaycan xalqı müstəqillik həyatında ilk dəfə olaraq Qarabağ və Şərqi Zəngəzur da daxil olmaqla, öz prezidentini seçmək üçün səs verdi.**



Fevralın 7-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs verdilər. Bunun çox böyük rəmzi mənası var idi və heç şübhəsiz, 7 fevral təqvimi şanlı salnaməmizə tarixi gün kimi yazılacaq.

Fevralın 8-də Mərkəzi Seçki Komissiyası növbədənkənar prezident seçkilərinin ilkin yekun nəticələrini də açıqlayıb. Beləliklə, İlham Əliyev seçicilərin 92,05 faizinin səsini qazanaraq seçkilərin qalibi olub. Bu qələbə, sözsüz ki, xalqın öz liderinə sarsılmaz inamından qaynaqlanmaqla, son iyirmi ildə görülən işlərə, qazanılan uğurlara verilən dəyərdir. Azərbaycan xalqı səsini İlham Əliyevə verməklə, bir daha ümummilli lider Heydər Əliyevin ideyalarına sədaqətini nümayiş etdirdi.

Bu qələbə həm də dövlət başçısının ən böyük siyasi qələbəsi və mütəşəkkil seçki kimi diqqət mərkəzinə düşdü. Növbədənkənar seçkilər yalnız bütöv Azərbaycanda baş tutan ilk seçki kimi tarixə həkk olunmadı, həm də son 20 il ərzində keçirilən Prezident seçkilərində qalib namizədin qazandığı səslərin və seçici fəallığının möhtəşəmliyinə görə də rekord nəticə ilə əlamətdar oldu.

Belə ki, 2003-cü ilin 15 oktyabrında baş tutan və seçicilərin 71,23 faizinin iştirak etdiyi seçkilərdə prezidentliyə namizəd İlham Əliyev 76,84 faizlik etimadla qalib elan olundu. 2008-ci ilin 15 oktyabrında 88,73 faizlə qalib gəldiyi seçkilərdə əhali fəallığı 75,66 faiz olmuşdur. 2013-cü ilin oktyabrın 9-da keçirilən seçkilərdə 84,54 faizlə qalib gəlmiş, seçici fəallığı isə 72,31 faiz olmuşdur. 2018-ci ilin 11 aprelində isə nəticələr belə idi: İlham Əliyev - 86,02 faiz, seçici fəallığı 74,3 faiz.

Fevralın 7-də isə seçici fəallığı 76,73 faiz təşkil etdi. İlkin nəticələrə görə, İlham Əliyev seçicilərin 92 faizindən artığının səsini qazandı. Son 20 ilin ən yüksək nəticələri olan bu göstəricilər xalqın tarixin ən qüdrətli Azərbaycanının və ən möhtəşəm Zəfərinin müəllifi olan İlham Əliyevə ümummilli dəstəyinin parlaq təzahürü oldu.

Bu prezident seçkiləri ilə Azərbaycanda yeni dövrün başlanğıcı da qoyuldu. Ötən ilin sentyabrında suverenliyimiz tam bərpa olundu, Qarabağda separatçı rejimin mövcudluğuna birdəfəlik son qoyuldu. Bununla da Azərbaycan tarixinin çox mühüm dövrünə yekun vuruldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev qüdrətli sərkərdəliyi, öz müdrik siyasəti ilə xəyal kimi görünən arzularımızı həqiqətə çevirdi. İndi isə yeni bir dövr başlayır, bu dövrün başlanğıcı məhz prezident seçkiləri ilə qoyulur.

Biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi qədəm qoymuşuq. Müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən - uğurlu antiterror tədbirlərindən sonra başlayıb. Prezident seçkilərinin nəticələri göstərdi ki, xalqımız bu nailiyyətlərin davamının gələcəyinə, yeni dövrdə qarşıda duran yeni vəzifələrin də uğurla yerinə yetiriləcəyinə əmindir.

## Prezidentin qəbulu

### Dövlət başçısı baş katiblərlə görüşüb

Fevralın 8-də Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.

Bundan əlavə, Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Baş katibi Mehmet Süreyya Eri və TÜRKPA beynəlxalq seçki müşahidə missiyasının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin üzvü Osman Mestenlə görüşüb.

Baş katiblər Prezident İlham Əliyevə seçkilərdə inamlı qələbə münasibətilə təbriklərini çatdırıblar.

Həmin gün dövlətimizin başçısı Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedev və Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Mini də qəbul edib.

Söhbət zamanı qurumlarla Azərbaycan arasında əməkdaşlıq məsələlərinə də toxunulub, siyasi, mədəni, iqtisadi və digər sahələrdə əməkdaşlıq layihələri barədə fikir mübadiləsi aparılıb.

## Beynəlxalq təşkilatlar təqdir edir

### Seçkilərdə qanun pozuntusu olmayıb

Azərbaycanda seçkilər müvafiq qayda və qanunlara uyğun olaraq təşkil edilib, şəffaf şəkildə və heç bir qanun pozuntusu aşkarlanmadan keçib.

Növbədənkənar prezident seçkilərini müşahidə edən beynəlxalq təşkilatların, Türk Dövlətləri Təşkilatının, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının (İƏT PA), Asiya Parlament Assambleyası, GUAM PA kimi qrumlar keçirdikləri mətbuat konfranslarına oxşar bəyanatarla çıxış ediblər.

Asiya Parlament Assambleyasının nümayəndəsi Azərbaycanda baş tutan seçkilərin təhlükəsizlik baxımından dünyada ən yüksək səviyyədə baş tutmuş seçki prosesi olduğunu bildirib.

## Rəsmi xəbərlər

- Prezident İlham Əliyev fevralın 3-də Azərbaycan ictimai-siyasi həyatında fəal iştirakına görə Zakir Fərəc oğlu Fərəcovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev fevralın 1-də 2024-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev fevralın 2-də "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 1121 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

## Dünyanın diqqət mərkəzindəyik

### Xarici media Azərbaycandan yazır

**Prezident seçkilərinin ilkin nəticələri elan olunandan sonra bütün ölkə ərazisində Prezident İlham Əliyevin inamlı qələbəsi bayram əhval-ruhiyyəsində qeyd edilir.**

Ölkə xaricində də prezident seçkilərinin nəticələrinə böyük maraq var. Dünya mediası Azərbaycandakı seçkilərdən və Prezident İlham Əliyevin qələbəsindən yazır.

Prezident İlham Əliyevin seçkilərdə inamlı qələbəsi haqqında operativ xəbərlər Türkiyənin Anadolu İnformasiya Agentliyində, Macarıstanın ingilisdilli xəbər portalı "Daily News Hungary", "Origo", "Magyar Nemzet", "Demokrata" və digər mətbuat orqanlarında yayılıb. Beynəlxalq internet nəşri olan "Breaking News Network Worldwide" isə "Azərbaycanda seçkilərdə yüksək seçici fəallığı: xalq üçün qələbə" sərlövhəsi ilə məqalə dərc edib.

Avropa, ABŞ, həmçinin Yaxın Şərq və Asiyanın, o cümlədən Çin və Pakistanın media orqanları qeyd edirlər ki, seçkilər ilk dəfə Azərbaycanın müasir tarixində ölkənin öz ərazisi üzərində tam nəzarəti əldə etməsi şəraitində keçirilib. Ölkə ərazisinin təxminən 20 faizi 30 il ərzində işğal altında olub.

"Associated Press", "The Washington Post", "Euronews" kimi nüfuzlu media orqanları səsvermə günü seçicilərin yüksək fəallığını və əhval-ruhiyyəsini qeyd ediblər. Jurnalistlərin seçkilərə qədər söhbət etdikləri ölkə vətəndaşları bildiriblər ki, onlar müzəffər Prezidentə səs verəcəklər, çünki məhz o, uzun illər işğal altında olmuş torpaqları geri qaytarıb. "Euronews" yazır ki, Prezident İlham Əliyevin azərbaycanlılar arasında nüfuzu ölkənin Qarabağ üzərində tam nəzarəti bərpa etməsindən sonra daha da artıb. Bu nəşr öz övladlarının xoşbəxt gələcəyini indiki seçkilərlə əlaqələndirən sadə Azərbaycan vətəndaşlarının sözlərini təqdim edib.

Bəhreynin "The Daily Tribune" qəzeti Azərbaycandakı seçkiləri sabitliyə və inkişafa sədaqətin nümunəsi olan mühüm hadisə adlandırır, Pakistanın "The Express Tribune" nəşri isə seçkiləri ölkə tarixində dönüş nöqtəsi, hər bir vətəndaşın respublikanın taleyinin müəyyən edilməsinə cəlb olunmasının rəmzi kimi xarakterizə edir.

"The Express Tribune" Azərbaycanın öz ərazilərində suverenliyini tam bərpa etməsini tarixi Zəfər adlandırır. Qəzet yazır ki, bu Qələbə bütün regionun geosiyasi mənzərəsini dəyişib.

Qəzet, həmçinin oxuculara son illərdə Azərbaycanın uğurları və nailiyyətləri haqqında geniş icmal təqdim edir. "Azərbaycan xalqının sosial və iqtisadi rifahı hökumətin təşəbbüsləri sayəsində xeyli yaxşılaşıb", - deyə nəşrin məqaləsində qeyd olunur. Diqqətə çatdırılır ki, ümumi daxili məhsulun sürətli artımı 2003-cü ildəki 7,3 milyard dollardan 2022-ci ildə 78,7 milyard dollara qalxıb, habelə yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,5 faizə qədər azalıb.

Türkiyənin İHA, "Hürriyet", "Son dakika", "Haberler.com", "Beyaz Gazete", "TRT-Haber" kimi media orqanları da növbədənkənar prezident seçkilərinin ölkənin bütün ərazisində keçirildiyini vurğulayıblar.

Xarici mediada, həmçinin İlham Əliyevin qələbəsinin bayram edilməsi də yer alıb. Bir çox materiallarda vurğulanır ki, beynəlxalq müşahidəçilər yüksək seçici fəallığı şəraitində keçirilən seçkilərdə hər hansı pozuntu aşkar etməyib. Qeyd olunub ki, respublikanın paytaxtında insanlar Dövlət Bayrağı və Yeni Azərbaycan Partiyasının bayrağı ilə küçələrə çıxıblar.

Vətən deyəndə onlar yada düşür 2
Seçicinin də, hüquqlarının da keşiyindəyik 2
Səngəri sərhəd olub 3
Polis xəfiyyəsi Ejen Fransua Vidokun memuarları 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Hərbçilərin maaşı artırıldı

“Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” yeni redaksiyada təsdiqlənib. Baş nazir Əli Əsədovun imzaladığı qərarla Maliyyə Nazirliyinə tapşırılıb ki, tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini 2024-cü il dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirsin. Qərar yanvarın 1-dən tətbiq edilir.

### Seçkini izləyən nümayəndələrlə görüş

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Rusiya, Serbiya, Qırğızıstan, Belarus və Bolqarıstan MSK-larının nümayəndələri ilə görüşüb. MSK-nın sədri qonaqları seçki prosesi barədə məlumatlandırıb. Seçki ilə əlaqədar ümumilikdə 6537 məntəqə yaradılıb. Nümayəndə heyətinin üzvləri öz növbələrində seçki prosesini izləməyə dəvətə görə təşəkkürlərini bildiriblər.

### Xocalıda kütləvi məzarlıq aşkar edilib

İşğaldan azad olunan Xocalı rayonunda kütləvi məzarlıq aşkar edilib. Əsgəran qalasının yaxınlığında aşkarlanan məzarlıqda azı 8 insan qalığı var. Qalıqların Xocalı faciəsi zamanı qətlə yetirilən sakinlərə məxsus olması ehtimal edilir. Müvafiq qurumların nümayəndələri yerli və xarici jurnalistlərin iştirakı ilə kütləvi məzarlığa baxış keçiriblər.

### Şuşada atəşfəşanlıq

Otuz ildən sonra ilk dəfə Qarabağda prezident seçkilərinin keçirilməsi və İlham Əliyevin inamlı qələbəsi münasibətilə Şuşa şəhərində avtomobillərin yürüşü və atəşfəşanlıq olub. Atəşfəşanlıq Qarabağın, qədim Şuşanın səmasını al-əlvan rənglərə boyayıb.

### Pensiyalar indeksləşdirildi

Azərbaycanda pensiyaların indeksləşdirilərək artırılması nəticəsində orta aylıq pensiya məbləğinin 436 manatdan 485 manata, yaşa görə orta aylıq pensiyanın məbləğinin 467 manatdan 519 manata çatacağı proqnozlaşdırılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, 2024-cü il üzrə pensiyaların maliyyələşdirilməsi üçün 6,5 milyard manat vəsait nəzərdə tutulub.

### Qarabağ Universiteti yaradılır

Qarabağ Universitetinin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları müəyyənləşib. Bu, Nazirlər Kabinetinin təsdiqlədiyi “Qarabağ Universitetinin Nizamnaməsi”ndə əksini tapıb. Universitetin nizamnamə fondu 10 milyon manatdır.

### Pul bazası artıb

Azərbaycanda pul bazası fevralın 1-nə 20 milyard 875,2 milyon manat təşkil edib. Azərbaycan Mərkəzi Bankından verilən məlumata görə, bu göstərici ötən ayla müqayisədə 2 milyard 540,8 milyon manat çoxdur.

### Əhali tibbi sığortadan yararlanır

Ötən il ərzində dövlət tibb müəssisələrinə 5 milyondan çox şəxs 22.3 milyon dəfə müraciət edib. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən bildirilib ki, bu, ölkə əhalisinin 52 faizinin icbari tibbi sığortadan yararlanması deməkdir. Dövlət tibb müəssisələrinin əhaliyə göstərdiyi xidmət sayı 70.2 milyon olub. Tibbi xidmətlərin 86 faizi ambulator, 14 faizi stasionar şəraitdə göstərilib.

### Etibarlı məlumat mübadiləsi təmin edilir

Dövlət qurumlarına etibarlı və dayanıqlı məlumat mübadiləsi üçün ölkə üzrə ümumilikdə 550 kilometrədək fiber-optik kabel çəkilişi aparılıb. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən bildirilib ki, respublikamızın regionları üzrə istifadəyə verilmiş 300 kilometrədək optik kabelin 130 kilometrdən çoxu yalnız Qarabağ regionu üzrə çəkilib.

### Sahibkarlara xüsusi dəstək

İşğaldan azad edilən ərazilərdə istənilən sahə üzrə fəaliyyət göstərən sahibkar “İşğaldan azad olunan ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək” mexanizminin təqdim etdiyi güzəştlərdən yararlana bilər. Mexanizm İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən bu ərazilərdə iqtisadi aktivliyin bərpa olunması məqsədilə həyata keçirilir və həmin ərazilərdə qeyri-neft sektoru üzrə bütün iqtisadi sahələrdə fəaliyyət göstərən sahibkarlar üçün nəzərdə tutulub.

# Vətən deyəndə onlar yada düşür

## Şəhid polisin doğum günü qeyd olunub






**Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayında antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış polis əməkdaşı Asim Camalzadənin doğum günü qeyd edilib.**

Tədbirdə şəhidin ailə üzvləri, yaxınları və ƏÇPA-nın rəhbərliyi iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən igid oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Şəhidin yaxın qohumları və xidmət yoldaşları Vətənimizin bölünməzliyi və bütövlüyü uğrunda gedən mübarizədə adlarını tarixə həkk edənlərin əziz xatirələrinin həmişə uca tutulduğunu və onların dövlətin ali rəhbərliyinin qayğısı ilə əhatə olunduqlarını vurğulayıblar.

Qeyd olunub ki, 30 ildən çox keçən dövr ərzində torpaqlarımızın düşmən işğalı altında olması, beynəlxalq hüququn pozulması ilə bağlı dünyanın ən böyük təşkilatlarına etdiyimiz çağırışlar qulaqardına vurulmuş, əksinə, problemin uzadılması və dondurulması istiqamətində addımlar atılmışdır. Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyətin bu məsələyə seyrçi münasibət sərgiləməsi düşməni üç il öncə yeni ərazilər uğrunda müharibəyə həvəsləndirmiş, cəbhə bölgəsi də daxil olmaqla Gəncə və Bərdə şəhərləri raket atəşinə məruz qalmışdır. Düşmən təxribatının qarşısını almaq üçün Azərbaycan ordusu əks hücüm təşkil etmiş və 44 çəkən Vətən savaşında torpaqlarımız işğaldan azad olunmuşdur.

2016-cı ildən xidmətə başlayan həmkarımız Asim Camalzadə də 44 günlük Vətən müharibəsində və ondan sonrakı dövrdə dəfələrlə işğaldan azad edilən ərazilərə ezam olunub, verilən tapşırıqları yerinə yetirib.

O, 2023-cü il sentyabrın 19-da antiterror tədbirləri zamanı Xocavənd rayonu ərazisində şəhid olub. Sumqayıt şəhərində Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Prezidentin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

# Seçicinin də, hüquqlarının da keşiyindəyik

## Seçki günü gördüklərimiz və eşitdiklərimiz...

**Müstəqillikdən sonra ərazi bütövlüyünün və suverenliyin tam bərpası fonunda keçirildiyinə görə xalqımız üçün məxsusi əhəmiyyət daşıyan tarixi növbədənkənar prezident seçkiləri sabitlik mühitində başa çatdı.**

Bu, həm seçki günü qışa xas olmayan iqlim şəraitinə, həm də ictimai qayda və təhlükəsizlik mühitinin qorunmasına aid sabitlik idi.

Seçkilərin təbliğat və təşviqat mərhələsi boyunca təhlükəsizlik, əmin-amanlıq yüksək səviyyədə təmin edilmişdi. Qalırdı seçki günü.

O gün polis əməkdaşları gündəlik ictimai asayişi qorumaqdan ziyadə xalqın səsini qorumaq üçün xidmətə çıxdılar. Böyük izdiham yaşanacağı, vətəndaşların məntəqələrə axın edəcəyi ehtimalı özünü doğrultdu. Bu seçkini Zəfər seçkisi kimi qəbul edən xalqımız öz liderini seçmək üçün əsl bayram coşqusu ilə seçkiyə qatıldılar.

Polisin o günki xidmətini görmək üçün paytaxtın bir neçə rayonunda - Xətai, Nərimanov, Nizami və Binəqədi rayonlarının seçki dairələrinin məntəqələri üzə müşahidələr apardıq. Seçici fəallığı günün ilk saatlarındaca özünü göstərirdi. Səsvermənin səhər 8:00-da başlayacağı elan edilsə də vətəndaşlar daha tez gəlib məntəqələrin qarşısına toplaşırdı. Polis əməkdaşları, Seçki Məcəlləsində göstərildiyi kimi, məntəqənin yerləşdiyi binalardan 100 metrdən az olmayan məsafədə dayanmışdılar.

Onlar üçün seçici səslərinin keşiyini çəkmək növbəsi başlayırdı...








Məntəqələrdən kənarda dislokasiya üzrə postlar qurulmuşdu. Həmkarlarımız məktəb binalarında təşkil edilən məntəqələrə tələb edilən məsafədən çox yaxınlaşmağın Seçki Məcəlləsinin tələblərinin pozulması kimi qiymətləndiriləcəyini yaxşı bildiklərinə görə buna xüsusi diqqət yetirirdilər. Yalnız seçici kimi səsvermədə iştirak edə bilərdilər ki, onların da əksəriyyəti artıq günün birinci yarısında öz hüquqlarından istifadə edib xidməti yerlərinə qayıtmışdılar.

Hər bir əməkdaşda “Polis əməkdaşı üçün yaddaş kitabçası” var idi. Bu kitabçaları fevralın 7-də növbədənkənar prezident seçkilərinin keçiriləcəyi elan ediləndən sonra Daxili İşlər Nazirliyi ilə Mərkəzi Seçki Komissiyası polisin xidməti fəaliyyətini daha da təkmilləşdirmək məqsədilə birgə hazırlamışdı. Əməkdaşlar orada qeyd edilən qaydaları əzbərlədiklərini, bununla belə kitabçanı yanlarından ayırmadıqlarını söyləyirdilər.

Məntəqələrin yerləşdiyi küçələrdən tez-tez post patrul avtomobili ötüb keçirdi. Öyrənirik ki, avtopatrul həm postları yoxlanış məqsədi daşıyır, həm də xidmətin bir qismi avtomobillərlə təşkil edilib. Hər hansı insident anında çevik reaksiya üçün beləcə operativlik təmin edilmiş olur. Günün ikinci yarısına qədər olduğumuz rayonlarda proses əsl seçki sükutu şəraitində keçirdi, insanlar çox rahatlıqla məntəqələrə gəlir və səs verirdilər. Yəni prosesi pozacaq hər hansı əlamət görünmürdü, ancaq polislər yenə də ehtiyatı əldən vermirdilər.

Biz də fürsəti əldən vermədən seçki günü asayişin qorunmasında polisin xidməti ilə bağlı bir neçə seçicidən təəssüratlarını soruşduq.

Cavab bir qayda olaraq, təhlükəsizliyin həmişəki kimi yüksək səviyyədə təmin edilməsi oldu.

Bu seçkinin uzun illərdən sonra Ağdərədə, Kəlbəcərdə, Laçında, Şuşada, Ağdamda, Füzulidə, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Xocavənddə, Xocalıda, Xankəndidə - bir sözlə, Qarabağ və Şərqi Zəngəzurda keçirilməsi ayrıca bir qürur qaynağı idi. İşğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsində 22 minə yaxın seçicinin səsvermə hüququnu dinc, əmin-aman, təhlükəsiz şəraitdə həyata keçirməsi ölkədəki ümumi sabitlik mühitinin etibarlı qorunmasının növbəti təsdiqi oldu. Dövlətin ən yüksək rəhbərliyində təmsil olunan vəzifəli şəxslərin yurdlarına qayıtmış sakinlərlə bərabər, bir vaxtlar ən təhlükəli bölgə sayılan, separatizm, terrorçu yavasına dönmüş ərazilərdə səs verdiyinin sorağını da aldıq seçki günü.

Seçkinin ilkin nəticələri də artıq bəllidir. Görünən odur ki, xalqımız fevralın 7-də həm də sabitliyin, əmin-amanlığın qarantı olan siyasi iradəyə səs verib.

*Rəşad Mehtiyev*

# Güvənc yerinə çevrilən ünvan

## Bu sətirlər xidmətimizin real mənzərəsidir

**Hər gün DİN-ə vətəndaşlar tərəfindən çoxlu sayda təşəkkür məktubları daxil olur. Polis-vətəndaş münasibətlərinin real mənzərəsini yaradan, güvənci, etibarı ehtiva edən bu məktublar onu deməyə imkan verir ki, Azərbaycan Polisinin gərgin xidməti ictimaiyyətin diqqət mərkəzindədir.**

**Təhlükəsizlik üzrə ekspert Orxan Musayev** sosial şəbəkələr üzərindən Azərbaycan Polisinə minnətdarlıq hissini belə ifadə edir: “...Polis istirahət etmir? Bu sualı xidmətdə olan hər hansı bir polis əməkdaşına versəniz inanın ki, eşitdiyiniz cavab bu olacaq: “Sizin təhlükəsizliyiniz bizim istirahətimizdir”. Xalqa xidməti içdiyi andla taclandıran, bunu özünə şərəf borcu hesab edəni uğura doğru aparan, sevdirən bilirsiniz nədir? Qazandığı güvənc, etibar və əlbəttə ki, ona göstərilən etimad.

Yanvarın 15-də Binəqədi rayonunda sexdə baş verən partlayışdan sonra hadisə yerinə ilk tələsənlərə diqqət etdinizmi? Polis idi, Azərbaycan Polisi! Dağıntılar altında qalanların çıxarılması, tüstüdən zəhərlənənlərin vaxtında xəstəxanalara çatdırılması üçün aidiyyəti qurumlara dəstək verən, həyat qurtarmağa çalışan polisimiz bir daha nəzərimizdə ucaldı, xilaskarlıq simvoluna çevrildi.

Torpaqlarımızın düşməndən azad edilməsində, Vətənimizin bütövlüyünə qovuşmasında da Polis qəhrəmanlıq salnaməmizə imzasını atdı. Vətən adına canını oda atanlara, Vətən andı içənlərə, sabitliyimizi, təhlükəsizliyimizi etibar etdiklərimizə biz hər zaman borcluyuq. Bu borcun adı isə sayğıdır, sevməkdir”.

**Şəhla Qəmbərova** kiberdələduzluğa məruz qalması ilə bağlı müraciətinə operativ baxılaraq dəyən ziyanın geri qaytarılmasında göstərdikləri köməkliyə görə Yasamal Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Lənkəran rayon sakini Saleh Şahmarov** oğurlanan mobil telefonunun tez bir zamanda tapılmasına görə Nərimanov RPİ-nin 17-ci Polis Şöbəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Paytaxt sakini Elman Mirzəyev** ona dəymiş ziyanın ödətdirilməsində göstərdikləri köməkliyə görə Yasamal Rayon Polis İdarəsinin əməkdaşlarının xidmətini təqdir edir.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Şəhid polisin xatirəsinə

## Musiqisi ilə könüllərdə yaşayan həmkarımız

**Fevralın 3-də Sabirabad rayonunun Ulacalı kəndində antiterror tədbirlərində şəhid olmuş polis serjantı Əzizbəy Muradovun xatirəsinə ucaldılmış abidə kompleksinin açılış mərasimi keçirilib.**






Açılışda şəhidin ailə üzvləri, rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının nümayəndələri, rayon polis şöbəsinin şəxsi heyəti və Əlahiddə Çevik Polis Alayının əməkdaşları iştirak ediblər.

Dövlət himni səsləndiriləndən sonra abidə kompleksinin qarşısına əklil qoyulub, şəhidin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sabirabad RPŞ-nin rəisi polis polkovniki Ramin Qədirov ərazi bütövlüyümüzü bərpa etmək üçün 2020-ci ilin sentyabrında haqq mübarizəsinə başlayan xalqımızın XXI əsrdə ən böyük qəhrəmanlığa imza atdığını bildirib. Təpədən-dırnağadək silahlanmış, dünyanın az qala havadarına çevrildiyi Ermənistanın məğlubiyyətə düçar olduqdan sonra ədalətin bərpa edildiyini diqqətə çatdıran natiq bu tarixi qələbə ilə yeni dövrün başlandığını vurğulayıb.

Qeyd olunub ki, xarabalığa çevrilmiş torpaqlarımızda bu gün abadlıq-quruculuq işləri gedir, Qarabağın yenidən cənnətə dönməsi üçün dövlətimiz bütün imkanlarını səfərbər edir.

Sonra şəhid polisimiz Əzizbəy Muradovun qəhrəmanlığından söz açılıb, ruhuna dualar oxunub. Bildirilib ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda döyüşməsi ilə qürur duyan E.Əzizbəyov müharibə bitdikdən sonra, Vətənə xidmətini davam etdirmək üçün daxili işlər orqanlarında xidmətə başlayıb. DİN Əlahiddə Çevik Polis Alayının əməkdaşı kimi asayişi qoruyub, sabitliyin keşiyində durub.

Şəhidin atası birinci Qarabağ Müharibəsinin qazisi, Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin üzvü Etibar Muradov ölkə və DİN rəhbərliyi tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

Əzizbəy Muradov Prezident İlham Əliyevin sərəncamları ilə Cəbrayılın və Qubadlının azad olunmasına, ölümündən sonra isə "Vətən uğrunda" medalları ilə təltif edilib.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Əməliyyat tədbirlərilə

## Silahlı şəxs tutulub, evlərdən oğurluq edənlər də saxlanıb

Sumqayıt Şəhər Polis İdarəsinin 1-ci Polis Bölməsinin əməkdaşlarının Corat qəsəbəsində həyata keçirdikləri tədbir zamanı əvvəllər məhkum olunmuş 1978-ci il təvəllüdlü Sərdar Heydərov saxlanılıb. Ondan 1 ədəd "Kalaşnikov" markalı avtomat silah, 1 ədəd patron darağı və 36 ədəd patron aşkar olunaraq götürülüb.

Həmçinin, bölmə əməkdaşları tərəfindən son bir neçə gündə keçirilən tədbirlər zamanı narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan 15, evlərdən və avtomobillərdən oğurluqlar edən iki nəfər də saxlanılıb.

# Keçmiş məhkumların silah sevgisi

## Niyyətləri silahları satıb pul qazanmaq imiş



Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən keçirilən tədbir zamanı Bakı şəhər sakini 1979-cu il təvəllüdlü Amin Çərkəzov saxlanılıb. Həmin şəxsdən 3 ədəd "F-1" qumbarası aşkar edilib.

Xətai RPİ və 37-ci Polis Şöbəsi əməkdaşları tərəfindən keçirilən birgə əməliyyat nəticəsində əvvəllər məhkum olunmuş 1991-ci il təvəllüdlü Gündüz Səfərov da qanunsuz silah saxladığı üçün tutulub. Ondan 3 ədəd "Kalaşnikov" markalı avtomat və 3 ədəd patron darağı aşkar edilib.

Xətai RPİ və 34-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri birgə tədbir zamanı isə özündə olan silah-sursatı könüllü polisə təhvil verməyən əvvəllər məhkum olunmuş 1977-ci il təvəllüdlü Vüqar İsgəndərov da həmçinin əməliyyat yolu ilə saxlanılıb. Ondan "Makarov" markalı tapança, patron darağı, 8 ədəd patron və şəxsi istifadəsi üçün əldə etdiyi heroin aşkar edilərək götürülüb.

Saxlanılan hər 3 şəxs əldə etdikləri silah-sursatı satmaq niyyəti ilə özlərində saxladıqlarını bildiriblər.

# Səngəri sərhəd olub

## Etibar qazanıb, etimadı doğrultmaq üçün əzmlə xidmət edir

**Ümummilli lider Heydər Əliyev deyirdi: "Vətəni qorumaq öz ana torpağını, evini, obasını, yurdunu qorumaqdır. Vətəni qorumaq öz namusunu, şərəfini qorumaqdır. Vətəni qorumaq öz atasını, anasını, balalarını, övladlarını qorumaqdır. Vətəni qorumaq Azərbaycan xalqının tarixini, mənəviyyatını, əsrlər boyu əldə etdiyi milli mədəniyyətini, milli iftixarını qorumaq deməkdir. Bu, şərəfli yoldur. Bu, şərəfli vəzifədir".**






Birinci Qarabağ müharibəsində olduğu kimi 44 gün çəkən İkinci Qarabağ müharibəsində də Azərbaycan gəncləri torpaq, Vətən sevgisini, mübarizliyini və əzmini nümayiş etdirdilər.

Bu qəhrəmanlar arasında Əhmədov İbrahim Namiq oğlunun da adı var. İ.Əhmədov 2001-ci il oktyabrın 23-də Bakıda doğulub. Səbail rayonundakı 49 saylı tam orta məktəbdə təhsil alıb. Dövlət Sərhəd Xidmətinin N saylı hərbi hissəsində həqiqi hərbi xidmət keçib. Xidmət ərzində xüsusi təyinatlı kursunu uğurla bitirib. Onun Zəfər yolu Cəbrayıl və Zəngilan şəhərləri və ətraf kəndlər uğrunda gedən döyüşlərdən başlayıb. Qızıl mədəni istiqamətində başlayan döyüşü Bartaz yüksəkliyinin azad olunaraq Azərbaycan sərhədinin tam bərpası ilə başa çatıb.

Ən böyük arzusu polisin sıralarında xidmət etmək olan İbrahim 2022-ci ildə bu arzusuna çatıb. Polis kiçik serjantı İ.Əhmədov hazırda Səbail RPİ-də xidmət edir.

O, "Zəngilanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Narkokuryerlərə ağır zərbə

## Yaxalanan şəxslərdən heroin, marixuana və tramadol götürülüb

Nərimanov Rayon Polis İdarəsinin 16-cı Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat nəticəsində paytaxt ərazisində narkokuryerliklə məşğul olan 21 yaşlı Ağabəy Vəlicanov və əvvəllər məhkum olunmuş 1994-cü il təvəllüdlü Elxan Həsənov saxlanılıblar. Onlardan ümumilikdə 2 kiloqram heroin və 1 kiloqram marixuana aşkar olunub. Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxslər barəsində həbs qətimkan tədbiri seçilib.

Şöbə əməkdaşlarının həyata keçirdikləri daha bir əməliyyat nəticəsində güclü təsiredici həblərin satışı ilə məşğul olan 1948-ci il təvəlüddü Arif Abasov da saxlanılıb. Həmin şəxsdən ümumilikdə 400 ədəd satışı qadağan olunan tramadol həbi aşkar olunub. A.Abasovun həbləri əldə etdiyi mənbənin müəyyən edilməsi istiqamətində tədbirlər davam etdirilir.

# Gənclərin maariflənməsi vacibdir

## Narkomaniya ilə yanaşı kibertalamalarla mübarizə də müzakirə mövzusu olub



Biləsuvar Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə K.Ağayev adına internat tipli məktəb-liseydə "Narkomaniya ümumbəşəri bəladır!", "Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq", eləcə də "Kibertalamalarla mübarizə" mövzularında maarifləndirici görüş keçirilib.

Narkomaniyanın acı fəsadlarını özündə əks etdirən məktəblilərin əl işlərindən ibarət rəsm guşəsinə baxışdan sonra RPŞ-nin rəisi polis polkovniki Nəsib Məmmədov açılış nitqi ilə çıxış edib. O, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan qətiyyətli mübarizədən, həyata keçirilən əməliyyat tədbirlərindən danışıb.

Daha sonra kibertalamalardan söz açan RPŞ-nin rəisi qeyd edib ki, bu gün kibercinayətkarlar tərəfindən müxtəlif sosial media hesabları vasitəsilə vətəndaşların şəxsi, eləcə də kart məlumatları oğurlanır. Bu kimi halların qarşısını almaq üçün tədbirlər həyata keçirilsə də bəzən dələduzların tutulmasına, onların layiqli cəza almalarına nail olunmur. Mübarizədə əsas şərt kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsi və vətəndaşların maarifləndirilməsidir.

Analoji tədbir Lerik Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Şəhər İnteqrasiya təlimi internat tipli Gimnaziyada da keçirilib.

RPŞ-nin rəis müavini polis mayoru Anar Şıxəliyev ictimaiyyət arasında aparılan profilaktiki tədbirlərin əhəmiyyətini vurğulayaraq bildirib ki, istər valideynlər, istərsə də ictimaiyyət nümayəndələri, ümumilikdə öz gələcəyinə biganə olmayan insanlar bu sahədə fəal mövqe tutmalı, yeniyetmə və gənclərin sağlam, faydalı həyat yaşaması üçün ciddi addımlar atmalıdırlar.

"Kibertalamalarla mübarizə" mövzusunda da toxunan məruzəçi əsasən yeniyetmələrə daha diqqətli olmağı, dələduzların şirin vədlərinə aldanmamağı, onların qurbanına çevrilməməyi tövsiyə edib.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, narkomaniyanın fəsadlarından bəhs edən sosial çarxlar nümayiş etdirilib.

*Teymur Əlizadə*
*polis mayoru*

# "Qara" bazarın "dəyər"lisi

## 8 milyon manatlıq narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb



Narkotiklərin qanunsuz dövriyyəsini təşkil edən şəxslərə qarşı DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları ötən ay paytaxt və bölgələrdə 50-dən artıq əməliyyat tədbirləri keçirib. Nəticədə gənclərimizi və gələcəyimizi zəhərləyən 55 nəfərdən ibarət 5 mütəşəkkil dəstə ifşa olunaraq cinayət məsuliyyətinə cəlb olunub. Onlardan 12-si ölkəmizə narkotik maddələr gətirən və polisin bir müddətdir ki, izinə düşdüyü şəxslər olub. "Qara" bazarda dəyəri 8 milyon manat olan 212 kiloqram (heroin, tiryək, marixuana, metamfetamin) narkotik vasitə və 12 min 791 ədəd psixotrop tərkibli metadon, tramadol və lirika həbi ələ keçirilib.

Narkoşəbəkənin digər üzvlərinin saxlanılmaları istiqamətində əməliyyatlar davam etdirilir.

*Anar Qafarov*
*polis mayoru*

# Beynəlxalq elmi konfrans keçirilib

## Polis Akademiyasının əməkdaşı tədbirdə iştirak edib

Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğu, Əskişəhər Azərbaycanlılar Dərnəyi, Qars Qafqaz Universiteti, Dünya Azərbaycanlıları Forumu, Hollandiya və İğdır Azərbaycan Evi və Türksanın birgə təşkilatçılığı ilə Türkiyə Respublikasının Qars şəhərində M.Ə.Rəsulzadənin 140 illiyinə həsr olunmuş "Bir kərə yüksələn bayraq, bir daha enməz!" adlı onlayn multidissiplinar beynəlxalq elmi konfrans keçirilib.

Tədbiri giriş sözü ilə açan Qars Qafqaz Universitetinin professoru Hacalı Nəcəfoğlu görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan M.Ə.Rəsulzadənin milli dövlətçilik məfkurəsinin formalaşmasındakı xidmətlərindən danışıb.

Sonra iştirakçılar məqalələrini təqdim ediblər. Polis Akademiyasının müəllimi, polis baş leytenantı Nərgiz Məmmədovanın "Dilçilikdə mürəkkəb söz anlayışı və onların yaranma üsulları" adlı məqaləsi maraqla qarşılanıb.

Konfransda Ədəbiyyatşünaslıq və Folklor, Dilçilik, Hüquq və digər sahələr üzrə müxtəlif məsələlər geniş müzakirə olunub.

*"Polis"*

# ABŞ tarixinə düşən “Unabomber”

## Adı Ted Kaçinski olsa da "bombalı adam" kimi tanınır

1978-1995-ci illərdə ABŞ-da alimlərə, iş adamlarına və mülki şəxslərə qarşı həyata keçirilən, ümumilikdə 16 bombalı hücum nəticəsində 3 nəfəri öldürən, 23 nəfəri yaralayan “Unabomber” ləqəbli Ted Kaçinski həbsxanada intihar edib.

Şimali Karolina ştatında federal həbsxanada saxlanılan Kaçinskinin 81 yaşı var idi. 1996-cı ildə həbs edilən Kaçinski hərəkətləri ilə Amerika ictimaiyyətində böyük əks-səda yaratdı və haqqında ən çox danışılan adamlardan biri oldu.





### Ted Kaçinski kimdir?

Onun tam adı Teodor J.Kaçinskidir. 1978-1995-ci illərdə universitetlərə və bəzi evlərə əldəqayırma bombalar göndərərək 3 nəfərin ölümünə səbəb olub. 1996-cı ildə ələ keçirilən Kaçinski iki ildən sonra partlayışlara görə məsuliyyət daşıdığını etiraf edib və azadlığa buraxılmamaq şərti ilə razılaşıb.

1942-ci ildə Çikaqoda fəhlə ailəsində doğulan Kaçinski universitet təhsilini Harvardda alıb və Kaliforniya Universitetində riyaziyyatdan dərs deyib.

### “Bombalı adam” kimi hədəfə alırdı?

O tutulana qədər ABŞ-ın hər yerinə 16 bomba göndərmişdi. İlk dəfə Şimal-Qərb Universitetində mühəndislik professorunu hədəfə alan Kaçinski 1979-cu ildə “American Airlines” təyyarəsinin yük anbarına bomba qoymaqla FTB-nin diqqətini çəkmişdi. Polis əvvəlcə belə ehtimal edirdi ki, Kaçinski qurbanlarını təsadüfən seçir. Lakin sonradan bomba göndərilənlərin heç də təsadüfən seçilmədiyi üzə çıxıb. Qurbanlardan biri- 5 may 1982-ci ildə səhv paketi açan katib Janet Smit bədəninin müxtəlif yerlərində yanıq xəsarətləri alıb. İki ay sonra təqaüdçü, elektrotexnika mühəndisliyi professoru Diogenes Angelakos boru bombasının hədəfi olub. 1993-cü ilin iyununda kompüter elmləri professoru David Gelernter içində doktorluq dissertasiyasının olduğunu düşündüyü paketi açıb və “Unabomber”in partlayıcılarından birini “kəşf edib”. Ağır yaralanan Gelernter sağ əlini həmişəlik itirib.

### “Gözəgörünməz”in axtarışı necə həyata keçirilib?

Kaçinskinin 1987-ci ildə çəkilmiş fotorobotundan sonra FTB 1979-cu ildə silsilə partlayışlarla bağlı təhqiqata başlamaq qərarına gəlib. FTB “University and Airline Bombing” ifadələrinə əsaslanaraq faylın adını “UNABOMB” qoyub.

İş üzərində çalışan 150-dən çox dedektiv qurbanların həyatını, bomba parçalarının xüsusiyyətlərini və digər sübutları izləyib. Bir müddət sonra FTB-yə “Unabomber” adlandırdıqları şübhəlinin Çikaqoda böyüdüyü və Solt Leyk Siti və San Fransisko bölgələrində yaşadığı məlum olub. Lakin onlar digər detalları, həmçinin bombardmançının cinsini müəyyən etməkdə çətinlik çəkiblər.

1995-ci ildə ABŞ-ın aparıcı qəzetləri olan “New York Times” və “Washington Post” qəzetlərinə anonim məktub göndərilib. UNABOMB faylında ardıcıl törətdiyi bombalı hücumların məsuliyyətini üzərinə götürən məktubunda qəzetlərin 35 min sözlük manifest çap etməsi qarşılığında partlayışların tamamilə dayandırılacağını bildirib. Qəzetlər FTB ilə məsləhətləşdikdən sonra bütün manifesti dərc etmək qərarına gəliblər.

### Sirli manifestdə nələr var idi?

Manifestdə ətraf mühitə böyük ziyan vuran və yadlaşmaya səbəb olan sənayeləşmə pislənir, sənaye sisteminə qarşı inqilaba çağırılırdı. İnsanlığı və təbiəti texnologiya və istismardan qorumaq üçün bombalı hücumları təşkil edən şəxs “Heç bir şeyə inanmıram, təbiətə və təbii həyata sitayiş edənlərin məzhəblərinə belə inanmıram” deməklə 232 maddədən ibarət manifestində insan növünün yol ayrıcında olduğunu iddia edərək, texnologiyaya qarşı edilən hər bir güzəştin insan azadlığını getdikcə məhdudlaşdırdığını yazırdı.

### Onu qardaşı məqalədən tanıyıb

Manifest dərc edildikdən sonra Kaçinskinin qardaşı David Kaçinski məqalədəki dili tanış görüb, səlahiyyətlilərlə əlaqə saxlayıb və qardaşının “Unabomber” ola biləcəyini bildirib. Əməliyyatçılar Kaçinskini Montanadakı kabinəsində tutublar. Səlahiyyətlilər daxmada istifadəyə hazır bomba və onu hazırlamaq reseptlərini özündə əks etdirən 40 min səhifəlik əlyazma gündəlik tapıblar. Kaçinski 1998-ci ilin yanvarında ittihamlar üzrə özünü təqsirli bilib və prokurorluqda onun ölüm cəzası almayacağına zəmanət verən müqavilə bağlayıb. Həmin il o, 4 ömürlük və 30 il həbs cəzasına məhkum edilib. O, cəzasının böyük hissəsini Kolorada ştatındakı yüksək təhlükəsizlik həbsxanasında çəkib. 2021-ci ildə səhhəti pisləşən və Şimali Karolinada federal sağlamlıq mərkəzinə yerləşdirilən Kaçinski kamerasında ölü tapılıb.

*Hazırladı: Aytən Tahirova*

# Turnir davam edir

## Komandamız favoritlərdən hesab olunur



Dövlət qurumları arasında ötən ilin yekunlarından start götürən və ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş II minifutbol turniri davam edir.

Turnirə DİN-in futbol komandası da qoşulub.

Fevralın 4-də keçirilən görüşdə komandamız çempionatın favoritlərindən sayılan Dövlət Neft Şirkətinin komandasına 5:0 hesabı ilə qalib gəlib.

Bundan öncə həmkarlarımız Azərbaycan Beynəlxalq Bankının komandasını da 4:0 hesabı ilə məğlub etmişdi.

Yığmamızın növbəti rəqibi fevralın 10-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanının komandası olacaq.

Qeyd edək ki, polis futbolçuları yarışa hazırlayan DİN İdman Cəmiyyətinin idman təşkili bölməsinin rəisi polis polkovnik-leytenantı Aydın Həşimovdur.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# “E-Polis” rəqəmsal platforması istifadəyə verilib

## Polis-vətəndaş münasibətləri keyfiyyətcə yeni müstəvidə




Ölkəmizdə innovasiya sisteminin formalaşması, inkişafı dövlət siyasətinin prioritetlərindəndir. Bu prosesdə yaxından iştirak edən Daxili İşlər Nazirliyi xidməti fəaliyyətin təkmilləşdirilməsi istiqamətində texnoloji yeniliklərin yaratdığı geniş imkanlardan səmərəli şəkildə faydalanır.

Bu günlərdə DİN polis-vətəndaş münasibətlərində şəffaflığın, əlçatanlığın və operativliyin artırılması, eyni zamanda vətəndaş yönümlü xidmətlərin təkmilləşdirilməsi məqsədilə göstərdiyi elektron xidmətləri daha da asanlaşdırdı. “E-Polis” rəqəmsal polis platforması istifadəyə verildi. Elektron polis tətbiqi vasitəsilə vətəndaşlar DİN-in göstərdiyi xidmətlərə birbaşa çıxış imkanı əldə etdi. Bununla da vətəndaş məmnunluğunun təmin edilməsi yönümündə polis-vətəndaş münasibətləri keyfiyyətcə yeni müstəviyə keçdi.

Belə ki, artıq vətəndaşlar DİN səlahiyyətində olan bir çox xidmətlərdən onlayn qaydada yararlana biləcək. Bunun üçün “E-Polis” tətbiqində və ya e-xidmet.mia.gov.az portalında identifikasiya nömrəsi və ya asan login ilə qeydiyyatdan keçmək kifayətdir.

Tətbiqdə bir çox bölmələr mövcuddur. Bölmələrə keçid edərək vətəndaşlar sənədləri nəzərdən keçirə və cərimələri onlayn qaydada ödəyə bilərlər.

“Soruş, öyrən, vaxt itirmə, çağır” devizi ilə xidmətə başlayan platformanın “Yeni müraciətlər” bölməsində vətəndaşlar heç bir yerə getmədən onlayn qaydada elektron imza ilə təsdiqlənmiş məhkumluq haqqında, nəqliyyat vasitəsinin zədələnməsi, nəqliyyat vasitəsinin yüklülük və yol nəqliyyatı hadisəsi ilə bağlı arayışlarını əldə edə, habelə olduğu yer üzrə müvəqqəti qeydiyyata alınmaq üçün də müraciət ünvanlaya bilərlər.

“Virtual 102” bölməsində isə vətəndaşların qarşılaşdığı məsələlərlə bağlı operativ olaraq görüntü, səs qeydi və yazılı formada müraciət etmək imkanları vardır.

Tətbiqdə həmçinin fəaliyyət istiqamətləri üzrə, eləcə də xidmətə qəbulla bağlı müraciətlər qeydə alınır və cavablandırılır.

Qeyd edək ki, yanvarın 23-dən bu günədək "E-polis" tətbiqi üzərindən 36900 nəfər qeydiyyatdan keçib.

*Teymur Əlizadə*
*polis mayoru*

# Polis xəfiyyəsi Ejen Fransua Vidokun memuarları - Düzgün strategiya

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*

### Sadəlövh oğru

Sonra köhnə, yırtılmış paltarıma baxaraq məni başdan-ayağa süzüb dedi:

- Həqiqətən də bəxtin gətirməyib. İndi dur, arxamca gəl! Bu axşam çoxdan planladığım mənzili soymaq niyyətindəyəm. Eşitmişəm ki, ordakı sandığın içi qiymətli əşyalarla doludu.

- İşimin nədən ibarət olduğunu mənə öncədən öyrətsəydin yaxşı olardı. Bəlkə heç öhdəsindən gələ bilməyəcəm.

- Həqiqətən də axmaqsan! Bir halda ki, ancaq keşik çəkəcəksən, sənə nəyi öyrədim?

- Əgər, hər şey dediyin kimidirsə mənə tam arxayın ola bilərsən. Amma ucundan-qulağından bir-iki kəlmə desəydin lap yaxşı olardı.

- Sənə deyirəm narahat olma, hər şeyi əvvəlcədən planlamışam. Səni inandırım işimiz yağ kimi gedəcək.

- Daha nəyi gözləyirik? Getdik ey...

San-Deni bulvarı ilə gedib böyük daş topasının yanında dayandıq. Masson ətrafı diqqətlə nəzərdən keçirdi. Bizi heç kimin izləmədiyinə əmin olduqdan sonra əlini daşların arasına soxub bir topa açar çıxardı.

- Bizə lazım olan da bax budur.

Birlikdə taxıl bazarına yollandıq. Qvardiya qoşunlarının kazarmasının qarşısındakı evi mənə göstərdi.

- Hə dostum, sən burda pusquda duracaqsan, mənsə kirayəşin qadının evdə olmamasından əmin olmalıyam.

Qadın mənzili tərk edən kimi Masson dəhlizdəki dar keçiddən içəri keçdi.

Vaxt itirmək olmazdı. Mən qaçaraq yaxınlıqdakı bölməyə oğurluq barədə məlumat verərək onların diqqətinə çatdırdım ki, əgər oğrunu maddi sübutlarla yaxalamaq istəyirlərsə tələsmələri vacibdi. Hadisə barədə bildiklərimi söyləyib pusquda gözləməli olduğum yerə çatar-çatmaz məni səslədiyini eşitdim.

- Burdasan, Jan Lui?

- Əlbəttə burdayam, deyərək cavab verdim. Əliboş qayıtmasından təəccübləndiyimi hiss edən Masson əsəbindən səsinin tonunu qaldırdı.

- Bu haqda heç danışma! Təsəvvür edə bilərsən, hansısa axmaq qonşu işimi görməyə mənə mane oldu. Amma sən heç narahat olma, hələ vaxtımıza var. Azacıq səbrli olsan, dostunun nələrə qadir olduğunu öz gözlərinlə görəcəksən. Bir neçə dəqiqədən sonra məndən ayrılıb yenidən yuxarı dırmandı. Bu dəfə istəyinə nail olmuşdu. Gəlişindən belindəki bağlamanın ağırlığı hiss olunurdu. Məni görməzdən gəlib, heç nə demədən yanımdan düz keçdi. Sakitcə onun arxasınca düşdüm. Mümkün qədər səssiz və görünməz olmağa çalışan iki jandarma da arxamızca bizi izləyirdi. İndi əsas məsələ oğurlanmış malları harada saxlayacağını öyrənmək idi. Rue de Fors küçəsində yaşayan “Ölümün başı” ləqəbli alverçi qadının evinə girib çıxmağı bir neçə dəqiqə çəkdi.




### Acgözlüyün sonu

Məni görən kimi “Bilirsən, bunları belində daşımaq həddindən artıq çətindir”, - deyə dilinin altında donquldandı. Onun əl-qoluna dolaşmamaq üçün mümkün qədər kənarda dayanırdım. Baş verənlərdən belə aydın olurdu ki, bu xəmir hələ çox su aparacaq. Masson yenidən qarət etdiyi mənzilə qayıtdı. Bu dəfə yorğan, döşək, yastıq qarışıq çarpayının üstündə nə varsa hamısını yığışdırıb aşağı düşdü. Görünür vaxtın azlığından onları səliqə ilə bükməmişdi. Yükü ağır olduğundan pilləkənin sonunda az qala yıxılacaqdı. Amma dərhal da müvazinətini düzəldib arxasınca gəlməyimi işarə etdi. Növbəti döngəyə çatanda mənə yaxınlaşıb sakit səslə pıçıldadı:

- Bilirsən, düşünürəm ki, üçüncü dəfə ora qayıda bilsəm əla olardı. İstəyirsən, gəl bir yerdə qalxaq, pərdələri açmaqda mənə kömək edərsən.

- Yaxşı, gedək, - deyərək cavab verdim.

Massonun arxasınca düşüb bir neçə addım getmişdik ki, jandarmalar bizi yaxalayıb komissarın yanına gətirdilər. Sonra uzun-uzadı sorğu-sual başladı.

- Görürəm iki nəfərsiz, – deyə, komissar Massondan soruşdu. Sonra məni işarə edərək sözünə davam etdi: Bu adamı tanıyırsan? O da sənin kimi oğrudu?

- Mən hardan bilim, o kimdi. Məncə, bu sualı özünə versəniz daha yaxşı olardı. Yəqin onu bir də hardasa görsəm bu ikinci dəfə olacaq.

- Sizi birlikdə yaxalayıblar, bunu ki, inkar etməyəcəksən.

(Ardı var)

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10018
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik